

■ Allahverdi Eminov

# "Geroy"

*hekayə*



Poçta girəndə adətincə işçilər ayağa durdu və geroy Ağaşirini salamladılar. Bircə təzə işə çıxan cavan oğlandan savayı. Bu dəfə geroyun qara nimdaş kitelində qırmızı ulduzlu orden yox idi. "Geroy" sözündən təəccüblənməyin, "qəhrəman" yazacaqdım, amma Ağaşirin çox istəyir, ona geroy Ağaşirin desinlər. Səksən yaşlı kişinin xahişini yerə salmaq günah olardı. Poçtun müdiri Səlim geroyun salamını eşidib, kiçik kabinetindən salona çıxdı və Ağaşirin kişinin əlini sıxdı:

- Həmişə siz gələsiz, qələbə bayramınız da yaxınlaşır - dedi və Geroyun sol yaxcasına ani nəzər saldı. - O Qızıl Ulduzu niyə taxmamısız? - Üzünü qara saçlı qadına tutdu: - Kişinin pensiyası gəlibdirmi? - Qadın da başı ilə "yox" demək istədi.

Geroy Ağaşirin kişi bu "dialoqu" görmürdü. Qarşısında dimdik dayanmış qara qaşlı, qara gözlü rəisə baxırdı. Rəisin də baxışları qara kitelinin sol yaxalığında ilişmişdi: "Çox mənalı baxır, gözünü çəkmir" - ürəyindən keçirdi. Və onun fikrini yayındırmağa çalışdı. - Təzə kitel sifariş vermişəm. Qələbə bayramınacan hazırlamalıdır, - dedi.

Poçt rəisi nəzərlərini o nöqtədən çəkdi və xeyli yüngülləşdi.

- Ağaşirin kişi kiteli hansı parçadan tikdirirsiz? - Sualın mənasızlığını anladı, xəcalətini gizlətdi. - Geroylar, ümumən, Vətən müharibəsi iştirakçıları kiteli xoşlayırlar. Stalindən gəlmədir. - Rəis gözünü Ağaşirin kişinin uzun sifətinə, qırışların saldığı izlərdə tər damcılarına zillədi. Qaşlarında iki-üç qara tük tərləmişdi. Qara lentli həsir şlyapanın günlüyü ləkədən ləpələnirdi. Ağappaq seyrək saçları qulağı bərabərliyində sallanırdı. Ağaşirin kişi bu anda şlyapasını əliylə qaldırdı, ortası daz başını yelpiklədi. Yumşaq meh rəisin alnına güclə çatdı. - Gərək ki, müharibənin ortalarında almısız geroyluğu. - Yenə araya söz saldı, Ağaşirin kişinin başını qarışdırmaq istəyirdi.

- Hə, qırx üçüncü ildə. - Cavab verdi. - Qışın pis vaxtıydı, soldatlar donub qalırdı, qarın üstündə. Baxırdın, iki-üç soldatdan biri çabalayırdı, sürünürdü. Yaxud, ayağa qalxır, səndirləyib üzü irəli addımlayırdı, seçəmmədim, cavandı, yoxsa yaşlıdı. O soldat çevrildi, kürəyini ağcaqayına dirədi, çömbəlib oturdu. Qulaqlı papağını başınnan götürdü, çırpdı qarını, üzünü sildi. Belə duydum ki, o rus soldatı şairdi, ağcaqayını sevir, ya da Yeseninin yerlisidir. Bu vaxt yaxşı ki, üç tankımız yetişdi bizə. Ürəkləndik, o qara yapışmış soldatlardan çoxu qəfil ayağa dururdu, papaqlarını havada yelldirdilər. Bəli, ürəklənmişdi bizimkilər, bircə ağcaqayına sığınmış o soldatdan hərəkət görmürdüm, bəlkə də

Geroy Ağaşirin kişinin gözündə gilənən yaşı Səlim aydınca görürdü. Və yaş gilliydi, sürüşüb çənəsində əriyirdi.

- Sizin, geroy, neçə yaşınız vardı? - Səlim suala ehtiyac duydu və yerinə düşdüyünü görüb sevindi.

- İyirmi olardı. - Təxminən söylədi. - İyirmi birin içindəydim, qəribədir, evdən məktub almışdım. Anamın halının yaxşı olmadığını bacım yazmışdı. Sən demə, o dünyasını dəyişmişmiş. - Geroy Ağaşirin kişi cümləsini güclə tamamladı və əzik dəsmalını çıxarıb üzünü sildi. Hiss edilirdi, göz yaşını gizlədir. - Ordudan qayıdanda ilkin anamın qəbrinə baş çəkdim, əl boyda söyüd ağacı başdaşının yerindəydi, qurumuşdu. Sonra eşitdim, vəsiyyət eləyib başdaşını əkdiyi söyüdün budağından düzəltsinlər.

Səlim son sözünü eşitmədi geroyun. Bizi o bəladan xilas etdilər, üzü Dunay çayına apardılar. Köməyə gələn arabanı qıpıqgöz oğlan sürürdü, özbəyə oxşatmışdım, qanım qaynamışdı. Xahiş elədim, sağ tərəfə, açıq talanın qurtaracağı meşəliyə gedək. Əlimi də ora uzatdım, ağcaqayına pənah gətirmiş o soldatdan xəbər tutum. Özbəkmiş həqiqətən, baş üstə ilə qoşa atları döndərdi. Mən arabadan atdandım, beş-on addım aralıydıq. Çırpınırdı ürəyim, dizimdə qüvvət varmış. Soldatın gözü qapanmışdı, duydum ki, salamatdır. Qucağıma aldım, əllərimin içində hənirti çırpınırdı: - Ölməmişdir! - Qışqırdım. Necə bağırmışam, soldat gözünü açdı. Yaşıl gözü dalğalandı, hərəkətə gəldi. Üzünü özümə tərəf çevirdim, arabaya sürüdüm. Özbək də köməkləşdi mənimlə. Salamat "sançasta" gətirib təhvil verdik. Özümü elə itirmişdim, onun şairliyini xəbər almağı unutdum.

Geroy Ağaşirin kişi susdu. Cibini axtardı. Səlim anladı ki, geroy siqaret çəkmək istəyir. Döş cibinə də əl uzatdı. Və dərhal siqaretini çıxardı.

- Məndə var, axtarmayın, - dedi və iki dənəsini əlində tutdu, birini ona uzatdı. - Alın, Ağaşirin kişi, yandıracam.

- Nə zəhmətdir. - Geroyun yaddaşında bu andaca bir xatirə vərəqləndi: - Dunay çayını keçməliydik, bir gecəlik bizi meşədə yerləşdirmişdilər. Komandir bizdən idi, bakılı oğlandı. Hərbi kursu qurtarmışdı. Soldatlar yatışırdılar. Məktub yazanları da vardı. Yuxum çəkilmişdi, komandirimiz mənim halımda idi. Yanına çağırdı: - Ağaşirin, - pıçıldadı, səsi yorğun idi, - Dünənnən maxarkom qurtarıb, ürəyim yanır. Lap beynimə vurub. - Bu sözlərdən güldü, hə, sən bilməzsən, dəmi gələndə - Köhnə qəzet parçasını əzdi ovcunda. Mən bir rus soldatının kağızları büküb bir-birinin içinə qoyduğunu görmüşdüm.

Yandırdı, iki-üç qullabdan sonra yalançı siqaret söndü. - Komandir, - deyib dik atıldım. Bir lap oğurluq da olsa maxorka tapacağam! - Hazırlaşırdım ki, komandir qollarımdan tutdu. - Tələsmə, keçib gedər. Gecənin bu vaxtında. - Təkidimdən qalmadım, uşaqlıqdan belə xasiyyətim vardı. - Götürüldüm, aralıda, əlli-altmış addımlığımızda komaya oxşar yerə gəldim. İşıq süzülürdü süd rəngli gecəyə. Ay doğmuşdu. Ulduzları əmizdirirdi. İçəri keçdim sakitcə, beş nəfəri yatmışdı. Nisbətən yaşlısı kötüyə söykənmişdi, barmaqları arasında əşdiyi papirosu gördüm, ürəyim gəldi yerinə. Ümidim vardı, istəyəcəyəm. O, gəlişimin məqsədini başa düşmüşdü, mehribanlıq göstərdi. Katyolu əyilib götürdü, çalxaladı: - "İsti çaydır, - dedi. - Bir stəkan qalıb. Soyuqdan gəlmisən. - Ayağa qalxdı, ağacdan asdığı şinelin cibindən kağıza bükülü "saxar" tikəsini mənə uzatdı. - Soyutma, iç - dedi. Siz cənublular çayı xoşlayırsız.

Mən içdim, canıma istilik yayıldı. Papiros sönmüşdü. - Bilirəm, nə üçün gəlmisən. - Gülümsündü. - Bəsdirmi? Sonuncudur. Səhərəcən bəsdir. Utanma al. Və papirosu götürüb öz komamıza gəldim. Komandir intizarda idi. Ən qiymətli bəxşişdi sanki, qürurlandım. Komandir yandırdı, üzü qərbə açıq yerdə dayandı. Ayın işığı bizə tuşlanmışdı. Süd rəngli işıq qarın üstünə sərilirdi. Buz bağlamış qarın səthi bıçaq tiyəsi kimi bərq vururdu. Komandir ehtiyatla qullab vurur, ağ bulanıq tüstü komadan burula-burula çölə axırdı, deyəsən, tüstü də üşüyürdü, ayın işığında qızınmağa can atırdı

Geroy Ağaşirin kişi qəfil özünə gəldi, saatdımı, dəqiqədimi, saniyədimi - vaxt ötdüyündən Səlimdən üzrxahlıq elədi. - Xəyalım uçmuşdu, çox sağ ol, siqaretimi yandırmısan da. - Bir qullab vurdu, tüstüsünü nəzakətlə burun pərələrindən buraxdı. Qoxulu ağ tüstü Ağaşirin kişinin şlyapasının günlüyünə toxunur, buz parçası kimi asıla qalırdı. - Səlim üşüdü, geroyun sözünün təsirinnən çıxmamışdı.

Geroy Ağaşirin kişi divara söykəmişdi sağ çiynini. - Duyuram ki, bakılı komandir barədə maraqlanırsan. Dunayı zülmlə adladıq, soyuq, texnika bərbad. - Geroy Ağaşirin kişi başını Səlimə döndərdi, küçədən keçən maşının qorxunc siqnalı sözünü kəsmişdi. - Bizim rotadan cəmi-cümlətanı yeddi nəfər salamat çıxdıq sahilə. Bu az qüvvə ilə almanların yuxuya qalmış xeyli soldatını cəhənnəmə göndərdik. - Səlim geroyun üzündə bu anlarda zəif təbəssümü sezdi və sevindi: - Əhsən, geroy. - Özünnən asılı olmadan dedi bu sözləri. - Halaldır sizə.

Geroy Ağaşirin kişinin ayaqları ağırlaşırdı, vaxtdan nə qədər ötdüyünü deyə bilməzdi. Səlim bunun indi fərqinə vardı. Geroyun ayaq üstə haçannan durduğuna xəcalət çəkdi: - Gərək onu kabinetimə dəvət eləyəydim. - Peşimanladı. - Amma ağlıma gəlməzdi belə sürətlə keçəcək söhbətimiz. Məsələ ondadı, pensiyası üçün gəlmişdi geroy: hətta cümə axşamı da təşrif buyurmuşdu. Tək yaşayır bu kişi. Yaş ötəndə insan tənhalaşır. Pulu qurtarıb ki, sabahın bu çağında geroy poçta buyurubdur. - Səlim belə düşünürdü, neçə ildir tanıdığı bu geroyda heç bir narazılıq-filan eşitməmişdi. Ağır-ağır içəri girir, salamlaşır işçilərlə, onlar da ayağa qalxır, izzətlə geroyun salamını alırlar. Köhnəlsə də Qızıl Ulduz, geroy Ağaşirin kişinin döşündə parıldayır. Sarıya-qırmızıya çalan Ulduz xüsusilə, qara kiteldə sanki həqiqi dan ulduzudur, özünü geroya etibar eləyibdir. - Səlim belə düşünmüşdü hər görüşəndə. Bu dəfə o, nimdaş kitelə taxmamışdır, dedi, kitel sifariş vermişəm. Bəlkə kitel hazırdır, kişi gəlmişdi təqaüdünü alıb dərzinin pulunu ödəsin. Proqnozu daima düz çıxmışdır. - Səlim bu inancı da ürəyinnən keçirdi. - Cibimdə pulum az deyil, təklif eləsə necə, acığı gəlməz ki?! - Azca qaldı, ağzında partlasın söz. Özünü saxlamışdı. - Ağaşirin kişi, bazar ertəsi mütləq alacağıq təqaüdləri.

Səlim siqaretin bu dəfə də ikisini çıxardı, Ağaşirin kişiyə uzatdı birini, alışqanı ovcunda sıxdı.

- Yox, bəsimdir. - Sən cavansan, mənim daha o sovet piyim qalmayıb, əriyib. - Gülümsündü. - Bu səhər yeməmiş evdən çıxmışam. - Saatına baxdı. - Bir-iki saatdan sonra nahardı. Tarqovla getməliyəm, alacağım var.

Geroy Ağaşirin kişi susdu, çəliyini sol qoluna keçirdi.

- Vaxtınızı aldım. Sizin də, işiniz az olmur, - dedi.

Səlim əlini geroyun sol çiyninə qoydu, ustufca döyəclədi:

- Maşallah, yaxşı qalmısız, Ağaşirin kişi. O döyüşü sizlər ki, keçirmisiz, kimlər sağdırsa, geroydur, vacib deyil fərman. - Səlim təsəllisinnən qalmaq istəmirdi. Amma Ürəyi sancdı: Bir dəfə geroyu məşhur tarqovuda orden-medal satan yerdə, satıcıyla söhbətdə görmüşdü. Ötüb keçmişdi. - Bəlkə geroy?.. O məsələ. Şübhələnirəm. Döşünə taxmamışdır bu gün. Geroy Ağaşirinin sol tərəfi titrəyir əlləri kimi. Mən, axı, yanılmıram proqnozumda.

Səlim onunla xudahafizləşib poçtdan ağır-ağır çıxan geroy Ağaşirin kişinin dalısınca baxdı: - Çağırım, deyim ki, indicə poçta təqaüd pulunu göndəriblər. Hə, hə, yoxsa, geroy. Və qəfil kabinetindən çıxdı, iri taclı pəncərəyə yaxınlaşdı. Gözünü qıyıb küçəyə göz yetirdi. Geroy səkidən biriki addım yola ayaq atmışdı, yol polisi üzərinə şığıdı.

- Qoca, qoca! Eşmitmirsən? Geriger! Və əlindəki dəyənəyi ona tərəf uzatdı. Ucadan: Qoca, qoca!

Geroy Ağaşirin kişi səsə dayandı, yol polisinə baxdı. Ürəyi çırpındı, baxışlarını sifətində cəmləşdirdi.

Yol polisi artıq geroy Ağaşirinə çatmışdı və geroy pencəyinin sol yaxasına dəyənəyi dirəmişdi. Ağaşirin kişi sağ əliylə dəyənəkdən yapışdı, yoxsa ürəyini sıxacaqdı.

- Görmürsən, böyük adam gəlir? Burdan keçəcək. Yolu boşalt, qoca! Otur evində də! Sənin

Geroy Ağaşirin kişinin əli sol yaxasından, ürəyinin həndəvərindən düşməmişdi. Çəliyinə söykənib, gələn "böyük adamın" ötüb keçməsini gözləyirdi. Polis maşınları tük ürpədici siqnallar çıxarır, "smirna" dururdular. Ani müharibəyə qayıtdı.

Səlim pəncərəni döyəclədi:

- Ağaşirin kişi! Ağaşirin kişi!

Səsi soyuq şüşəyə toxunub üzüağı qırma kimi diyirlənirdi. Ümidini itirmirdi: o eşidib qayıdacaq poçta.

- Geroy! Geroy!

Geroy Ağaşirin kişi indi sakitləşən yoldan səsi alıb qanrıldı və sakitcə yola baxır, çəliyini döyəcləyə-döyəcləyə uzaqlaşırdı.